# Vətən sevgisinin ən ali məqamı




**44 günlük haqq savaşımızın zəfər şəhidi, Azərbaycan Silahlı Qüvvələrinin mayoru Kamran Fərəcov məqamında Vətəni, xalqı üçün yaşamağı bacardı. Astara elinin qəhrəman oğlu 43 yaşında elə bir şərəfli ömür yolu keçdi ki, odu-alovu ilahi bir məhəbbətə dönüb insanların ürəyində özünə əbədi yer etdi. 30 il qana susayan yağını qanda boğmaqla ruhu ünyetməz göylərə qovuşan Vətən sevdalısının həyatı millətinə şərəfdir, qeyrətdir.**

Müqəddəs amallar uğrunda şəhid olub, adını qanı bahasına qəhrəmanlıq tariximizin səhifələrinə yazan Kamran indi cismən aramızda olmasa da, heç vaxt unudulmur, həmişə hörmətlə, böyük ehtiramla anılır, adı qürurla, iftixarla çəkilir. Necə deyərlər, harada bir Günəş saflığı var, onun sorağı oradan gəlir.

Ruhu uca göylərdə dolaşa-dolaşa şəhid mayorumuz ömrünün 48-ci ilinə çatdı. Bu münasibətlə ölümsüz qəhrəmanın məzunu olduğu Astara şəhər Z. Bünyatov adına 2 saylı orta məktəbində əziz xatirəsinə həsr olunmuş anım tədbiri keçirildi. Baxışlardan məğrurluq, həm də iftixar oxunan tədbirdə sevdalanıb baş qoyduğu müqəddəs torpaq ziyarət olundu, məzarına təzə güllərdən çələng hörüldü.

Məktəbin geniş zalında davam edən mərasimdə Vətən oğlunun doğma Azərbaycana göstərdiyi misilsiz xidmətlərdən qürurla danışan Astara Pedaqoji Kollecinin direktoru, professor, şəhid atası Kamran Kazımov xüsusi olaraq vurğuladı ki, əbədiyyət ulduzuna dönən şəhidimiz ürəyinin istəyi ilə canını Vətəninə fəda etdi, xalqın kimliyini, mənliyini bir daha bütün dünyaya göstərmək üçün müharibə meydanında qan tökdü. Belə əqidəyə malik insanlar heç vaxt ölmürlər. Həmçinin bu cür tədbirlərin təşkili gənc nəslin qəlbində Vətənə sevgi yaradır, şəhid ailələrinə olan hörmət və ehtiramın təcəssümünə çevrilir.

Vətənin azadlığı, bizim xoşbəxtliyimiz naminə son nəfəsinə qədər döyüşən şəhidlərimiz xalqımızın yaddaşında əbədi yaşayar, onların müqəddəs xatirəsi hər zaman məhəbbətlə və dərin minnətdarlıqla yad olunar.

Mərasim iştirakçıları arasında olan şəhidin döyüş yoldaşları çıxışlarında onu məsuliyyətli, qorxmaz, həmişə şəxsi heyətinə dayaq duran, müharibə meydanında özünə məxsus keyfiyyətləri ilə əsgərlərə qanad verən, Vətənin azadlığı üçün ölümdən qorxmadan irəliyə doğru addımlayan igid bir komandir kimi xatırladılar.

Şəhidimizin həyat yoldaşı Nuranə xanım Fərəcova haqqında da səmimi, ürək açan sözlər deyildi. Bildirildi ki, Azərbaycan qadınına məxsus bütün nəcib keyfiyyətlər onun xarakterində cəmləşib. O, gücü, qeyrəti hesabına çətin günlərdə öz ayaqları üzərində dayanmağı bacarıb. Hazırda Astara Pedaqoji Kollecində Maliyyə-informatika və qida təhlükəsizliyi şöbəsinin müdiri vəzifəsində çalışmaqla xalqına ləyaqətlə xidmət edir. Şəhidin bizə yadigar saxladığı əkiz qızlarını- Şəms və Dənizi onun uca adına layiq böyüdür.

Digər çıxışlarda isə mayor Fərəcovun şəxsiyyət kimi boya-başa çatmasında , vətənpərvər ruhda böyüməsində əməyi olan və onun xatirəsini yaşadan 2 saylı tam orta ümumtəhsil məktəbinin kollektivinə təşəkkür edildi, müəllimlərin verdiyi bilik, aşıladığı milli-mənəvi dəyərlər və Vətənə sevgi şəhidin gələcək həyat yolunda mühüm rol oynadığı deyildi.

Məlumat üçün bildirək ki, şəhidimiz Astara rayonunun Səncərədi kəndində dünyaya göz açıb, ali hərbi təhsillə silahlanaraq peşəkar zabit kimi Ağdamda, Gəncədə, Goranboyda- cəbhə bölgəsində Vətənin keşiyində durub. 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilib. 44 günlük haqq savaşımızda Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə ön cərgədə döyüşərək qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra III dərəcəli "Rəşadət" ordeninə, "Vətən uğrunda", "İgidliyə görə", Qubadlının, Cəbrayılın azadlığı uğrunda medallara layiq görülüb.